# THE SEMANTIC STRUCTURE OF THE NAMES OF FLOWERS IN NIZAMI'S WORK "THE TREASURE OF SECRETS"

**Khayala Mursaliyeva**[7]
УДК 82-3.512.162
KBT 83.3 (5 Aze)

**Keywords:**

Basic flower names
Derived flower names
Spring color
Nile color
Musk color
Freckles color
Lead color
Amber color

**ABSTRACT**

The great poet Nizami used in his works the power of the influence of colors on the spiritual world to embody in the eyes of the reader the countless, seemingly, means of beauty that are the charm of the universe. The colors that adorn all of humanity are unique in their amazing beauty. In the work "Treasure of Secrets" it is established that the names of white, black, gray, blue, green, red and yellow colors have a richer semantic capacity. Note that the semantic structure of colors refers to the lexical and semantic variants of a word, organized in the form of a hierarchy.

When we look at the semantic structure of the white color in the work, we observe that it corresponds to the character of snow, ash, baboon, eyes, happiness, happiness, hair and beard color, pure, beautiful, blue, and many other denotations. From the semantic field of black color, we can see that the actual denotations of the color soot, coal, gloomy, dark, sad, angry, youth, beauty, fun, darkness, gloom, night, mourning, mourning. In the work, the gray color is expressed through shades of gray, musky, as well as the colors of freckles, ash, amber and lead. In the "Treasury of Secrets", the red color is expressed by the tokens burgundy, manual, mute, gold, scarlet, pink, ruby, and fire. In this paper, the names of colors are developed as part of phraseological combinations, both in their real and figurative meaning. But note that not all color names are equally well developed in phraseological combinations.

[7]. Teacher at Sumqayit State University
murseliyeva.xeyale@mail.ru
https://orcid.org/0000-0002-5252-8742

*Received: 25.12.2020*
*Accepted: 12.03.2021*

ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)
JOURNAL OF "HISTORY OF SCIENCE"
Cild 2, Say 1, Sıra 3, 2021, 19-30

# NİZAMİNİN "SİRLƏR XƏZİNƏSİ" ƏSƏRİNDƏ RƏNG ADLARININ SEMANTİK STRUKTUR

**Xəyalə Mürsəliyeva**[8]
УДК 82-3.512.162
KBT 83.3 (5 Aze)

**Açar sözlər:**

Əsas rəng adları
Törəmə rəng adları
Yaz rəngi
Nil rəngi
Mişk rəngi
"Çil" rəngi
Qurşun rəngi
Ənbər rəngi

**ANNOTASİYA**

Kainatın zinəti olan saysız-hesabsız gözəllik vasitələrini zahirə çıxardaraq oxucunun nəzərində təcəssüm etdirmək üçün dahi şair Nizami əsərlərində rənglərin ruh aləminə təsir gücündən istifadə etmişdir. Bütün bəşəriyyəti bəzəyən rənglər ecazkar gözəlliyi ilə təkrarsızdır. *"Sirlər xəzinəsi" əsərində ağ, qara, boz, mavi, göy, yaşıl, qırmızı və sarı rəng adlarının daha zəngin semantik tutuma malik olduğu müəyyənləşdirilmişdir. Qeyd edək ki, rənglərin semantik strukturu dedikdə bu və ya digər sözün iyerarxiya şəklində təşkil olunmuş leksik-semantik variantları nəzərdə tutulur.*

Əsərdə ağ rəngin semantik strukturuna nəzər yetirdikdə onun qar, kül, bəbək, göz, xoşbəxt, səadət, saç və saqqalın rəngi, təmiz, gözəl, göyçək və bir çox başqa denotatların xarakterinə uyğun gəldiyini müşahidə edirik. Qara rəngin semantik sahəsinə hiss, kömür rəngi, tutqun, tünd, kədərli, pis, qəmgin, gənclik, gözəllik, şuxluq, qaranlıq, zülmət, gecə, matəm, yas denotatların münasib olduğunu görürük. Əsərdə boz rəng - boz, ala, çil, kül, ənbər, qurşun rəngləri vasitəsi ilə ifadə edilib. "Sirlər xəzinəsi"ndə qırmızı rəng tünd qırmızı, al, ləl, qızıl, qırmızı, qızılgül, yaqut, atəş leksemləri ilə ifadə edilmişdir. Əsərdə rəng adları həm öz həqiqi, həm də məcazi mənalarında frazeoloji birləşmələrin tərkibində işlənib. Lakin qeyd edək ki, heç də rəng adlarının hamısı frazeoloji birləşmələrdə eyni səviyyədə işlənməyib.

[8] Sumqayıt Dövlət Universitetinin müəllimi
murseliyeva.xeyale@mail.ru
https://orcid.org/0000-0002-5252-8742

*Məqalə redaksiyaya daxil olmuşdur: 25.12.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 22.01.2021*
*Çapa qəbul edilmişdir: 12.03.2021*

# СМЫСЛОВАЯ СТРУКТУРА НАЗВАНИЙ ЦВЕТОВ В ПРОИЗВЕДЕНИИ НИЗАМИ "СОКРОВИЩЕ ТАЙН"

**Хаяла Мурсалиева**[9]
УДК 82-3.512.162
KBT 83.3 (5 Aze)

**Ключевые слова:**

Основные названия цветов
Производные названия цветов
Цвет весны
Цвет нила
Мускусный цвет
Цвет веснушек
Цвет свинца
Цвет амбра

## АННОТАЦИЯ

Гениальный поэт Низами использовал в своих произведениях силу влияния красок на душевный мир, чтобы воплотить в глазах читателя бесчисленные, казалось бы, средства красоты, являющиеся прелестью мироздания. Цвета, украшающие все человечество, неповторимы своей удивительной красотой. В произведении "Сокровище тайн" установлено, что названия белого, черного, серого, синего, зеленого, красного и желтого цветов обладают более богатой смысловой емкостью. Отметим, что под семантической структурой цветов понимаются лексико-семантические варианты того или иного слова, организованные в виде иерархии.

Когда мы смотрим на смысловую структуру белого цвета в произведении, то наблюдаем, что он соответствует характеру снега, пепла, бабуина, глаз, счастья, счастья, цвета волос и бороды, чистого, красивого, голубого и многих других денотатов. Из смыслового поля черного цвета мы видим, что актуальны денотаты цвета копоть, уголь, мрачный, темный, грустный, злой, мрачный, юность, красота, веселье, темнота, мрак, ночь, траур. В произведении серый цвет выражен через оттенки серого, мускусного, а также цвета веснушек, пепла, янтаря, амбра, свинца. В "Сокровищнице тайн" красный цвет выражен лексемами бордовый, ручной, немой, золотой, алый, розовый, рубиновый, огненный. В работе названия цветов разработаны в составе фразеологических сочетаний как в их реальном, так и в переносном значении. Но отметим, что далеко не все названия цветов одинаково хорошо проработаны во фразеологических сочетаниях.

[9]. Преподаватель Сумгаитского государственного университета
murseliyeva.xeyale@mail.ru
https://orcid.org/0000-0002-5252-8742

## GİRİŞ

Dahi Azərbaycan şairi Nizami Gəncəvi öz əsərlərində qarşısına qoyduğu çətin, geniş və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gələ bildiyindəndir ki, bu gün bütün xalqlar tərəfindən hərarətlə sevilərək ürəklərdə və düşüncələrdə əbədi yaşamaq hüququ qazanmışdır. Hikmət xəzinəsinin dahisi hesab edilən şair "Sirlər xəzinəsi" əsərində insan idrakının sonsuz qüdrətini tərənnüm edən zaman rəng adlarının müxtəlif semantikasından istifadə edərək zəngin rəngarəngiz boyalar yaratmışdır. Şair kainatın əsrarəng gözəlliklərini, təbiətin yaratdığı bütün maddi və mənəvi nemətləri rənglər vasitəsilə daha ekspressiv və emosional tərzdə ifadə etmişdir.

*"Sirlər xəzinəsi"* Nizaminin didaktik-fəlsəfi əsəri olmaqla bərabər, Şərq ədəbiyyatına bir sıra yeni ideyalar gətirmişdir ki, bu ideyalar həm şairin sonrakı əsərlərində özü tərəfindən, həm də onun şagirdləri tərəfindən inkişaf etdirilmişdir [1,s.32].

Şair "Sirlər xəzinəsi" əsərində ağ, qara, boz, mavi, göy, çil, zümrüd, yaşıl, sarı və digər rəng adlarının zəngin semantik tutumunu təsvir etmişdir.

Qeyd edək ki, dünyanı, təbiəti bəzəyən rənglərsiz təsəvvür etmək qeyri-mümkündür. Bu gün təbiətdə mövcud olan rəngləri əsas və qarışıq, isti və soyuq, ilkin və törəmə deyə təsnif edə bilirik. Rənglər gözlərimizə günəş şüalarının çırpılması nəticəsində yaranan duyğudur. Dünyada rənglərin tonları təxminən 1 ilə 7 milyon arasında dəyişir. Bununla belə, rənglərin dəqiq miqdarını söyləmək qeyri-mümkündür.

Rəng adlarını leksik-semantik tutumuna görə törəmə və törəmə olmayan rəng adları şəklində təsnif edirik. Törəmə olmayan rəng adları əsas rəng adları ilə eyniləşdirilir. Əsas rəng adlarına göy qurşağında olan və olmayan bütün mühüm rənglər: ağ, qara, qırmızı, sarı, narıncı, göy, bənövşəyi, qara və s. aid edilir.

Törəmə rəng adları rəngi hər hansı predmetə münasibətdə ifadə edir. Bunlar bir qayda olaraq əsas rənglərin çalarlarının adını bildirir. Törəmə rəng adları ismin sonuna müəyyən şəkilçilərin artırılması ilə "isim+rəngi" modelinin qurulması ilə yaranan rənglərin adını ifadə edir. –i$^4$ şəkilçisi "isim+rəngi" şəkilli törəmə rəng adı yaradır. Məsələn: bənövşəyi, xurmayı, xınayı, püstəyi, qəhvəyi, gümüşü, qızılı, şabalıdı, badımcanı, zoğalı, sürməyi, narıncı, mixəyi, şəkəri və s.

Rəng adlarına semantik sahə prizmasından yanaşdıqda həmin sahənin strukturunun əsas rəng adlarının yaratdığı nüvə komponentləri və törəmə adların, müxtəlif tipli rəng çalarlarının nominasiyalarının formalaşdırdığı periferik elementlərin məcmusu kimi təsəvvür etmək olar. Rəng spektrinin müxtəlifliyi sahənin vahid dominant ətrafında qruplaşmasını obyektiv olaraq qeyri-mümkün edir. Əsas rəng effektləri isə semantik mikrosahələr strukturunu əmələ gətirir. Beləliklə, mikrosahələr rəng sahəsinin üfiqi strukturunu əmələ gətirir və hər bir konkret invariant-semantik məna ətrafında müəyyən ifadə vasitələri toplanır. Buna elmi ədəbiyyatlarda "çətirlənmə" də deyilir. Məsələn: qırmızı rəng mikrosahəsi, qara rəng mikrosahəsi, ağ rəng mikrosahəsi və s. kimi semantik mikrosistemlər ümumi rəng və ya rənglər mikrosahəsini əmələ gətirir.

X. İsazadə rəng adlarının semantik sahəsini belə qruplaşdırır:

1. Qırmızı rəng mikrosahəsinə qırmızı - al, çəhrayı, odlu, alov rəngi, lalərəng, albalı rəngli, moruğu, atəşrəng, sumağı, zoğalı, gülgəz, gülrəng, qızıl;
2. Narınc rəng mikrosahəsinə narıncı – kürən, kərpici, turuncu, qırmızı-qonur;
3. Sarı rəng mikrosahəsinə sarı – qızılı, zərvari, güləbətin, samanı, zəfəranı, limonu, buğdayı, kəhrəba rəngi, xardal rəngi;
4. Yaşıl rəng mikrosahəsinə yaşıl – göy, zümrüdü, qarpızı, püstəyi, xaki, noxudu, xurmayı, zeytuni;
5. Göy rəng mikrosahəsinə göy - mavi, səmavi, asimani (açıq mavi), abı, firuzəyi, göyəmi, sürməyi;
6. Bənövşəyi rəng mikrosahəsinə bənövşəyi - yasəməni, bənövüş, badımcanı;
7. Boz rəng mikrosahəsinə boz – poladı, külü, qır, çal, qara, qəmər, şəvə;
8. Qəhvəyi rəng mikrosahəsinə qəhvəyi – şabalıdı, mixəyi, qəhvəyi / qumral, xurmayı

(açıq qəhvəyi), qonur / şabalıdı (açıq qəhvəyi), darçını;

9. Ağ və krem rəngi mikrosahələrinə ağ – bəyaz, bej, şirmayi, nabati, ətrəngi, sədəf rəngi [4,s.15].

Rəng adları, rəng tonları, onların ifadə formaları və adlandırılması xüsusiyyətlərini də özündə əks etdirir. Rəng mikrosahələrinin mərkəzini və hər bir semantik mikroblokun dominantını təşkil edən əsas rəng adları ətrafında isim, sifət, feil və zərflərdən ibarət leksik vahidlər, düzəltmə və mürəkkəb sözlər, analitik formalar, söz birləşmələri, məcazlaşmış söz və ifadələr, terminləşmiş nominasiyalar, frazeoloji birləşmələr qruplaşır ki, bunlar da nüvə qatına yaxın və uzaq periferik komponentlər olmaqla hər bir mikrosahənin şaquli strukturunu yaradır.

Rənglərin semantik strukturu dedikdə, bu və ya digər sözün iyerarxiya şəklində təşkil olunmuş leksik-semantik variantları nəzərdə tutulur. Sözün semantik strukturu sözdüzəltmə aktivliyini və ekspressiv çalarları əhatə edir.

### "Sirlər xəzinəsi" əsərində ağ rəngin semantik strukturu

- Əsərdə ağ rəng saçın, saqqalın rəngini bildirmək üçün istifadə edilmiş rəng adıdır. Burada "hörmətli", "yaşlı", "təcrübəli" mənalarını daşıyan *ağsaçlı, ağbirçək* leksemlərinə də rast gəlirik:

İlləri yola salmış bu *ağ saçlı* kainat,
Bir tel ucu dəyişməmiş o, heyhat [2,s.102].

Bu *qara, ağ saçların* nəyi öyrədir sənə?
Gecədən yol gedirsən təfəkkür gün-duzünə [2,s.114].

Yadda saxla, nə söylər sənə *ağbirçək* qarı:
Qanadlandır, şadlandır yetimləri, dulları [2,s.112].

O *ağsaçlı* ixtiyar seyrə daldı gülzarı,
Bir aydan sonra yenə burdan düşdü güzarı [2,s.151].

- Ağ rəng adının əsərdə *ağ lövhə, ağ vərəq, ağ pərdə* şəklində işlənərək "təmiz", "pak" lekseminə, qara sözü isə *qara vərəq, qaralanmış vərəq* şəklində işlənərək "çirkli, ləkəli, çirklənmiş" mənalarına uyğun fikir ifadə etdiyini görürük:

Ürəyimə damıb ki, günahkaram bir qədər,
Əlimdə qaralanmış, yaralanmış vərəqlər [2,s.204].

Birinci nəqş edilmiş "Əlif" oxu lö-vhədə,
Ağ pərdəli qapıda qismət oldu Əhmədə [2,s.32].

Ağ süfrəni, gör, necə gül rəngli mey bəzəyir [2,s.83].

Ümid gülabı kimi təmiz göz yaşı tök ki,
Təmizləyə biləsən bu qara, ağ lövhəni [2,s.158].

Burada *ağ, qara lövhə* ifadəsi ilə gün-düz və gecəyə işarə edilir. İnsan öz ömrünün gecəsini, gündüzünü təmizə çıxardıb pak etmək üçün tövbə qılmalı, suçlarının, günahlarının bağışlanmasını sidq ürəkdən ulu Tanrıdan diləməli və tövbəsinə layiq yaşamalıdır.

- Ağ və qara rənglər əsərdə insan dəris-inin rəngini və ya onun hansı irqə mənsub olduğunu da bildirir:

Lalənin bağrı *qara - ərəb yavrusu* kimi [2, s.74].

Şikar kəşfiyyatçısı, sərt, acıqlı bir cavan,
Yanında *qara bir qul* - bir az qəmgin, pərişan [2, s.70].

Qəlbin zənciyə oxşar, üzünsə *ağ rumluya* [2, s.115].

Bu semantik tutum bədii ədəbiyyatda *gözəl, göyçək* mənasına ekvivalent kimi işlədilir və əsərdə *ağ buxaq, ağ yaxa, ağ sinə, ağ üz* və s. sözlərlə ifadə edilib:

Gümüş buxaq, *ağ buxaq* kəmər bağladı tərdən [2, s.82].

Gümüş tək *ağ üzündə* ətir saçır qara tel [2, s.82].

Necə qəşəng açılıb hurinin *ağ yaxası*,
Səhər naməsidirmi nur möhürü - tuğrası? [2, s.83].

Tutuquşu başından gözəl, *ağ çənəsi* var [2, s.77].

- Əsərdə ağ rəng adı xoşbəxt, bəxtəvər mənasını əks etdirir:

Uğrunda can qoyanlar, ox tutanlar nə qədər...
*Ağbəxt* mənəm, qarabəxt səni istəməyənlər [2, s.54].

Biz ki, qara gildənik, hardandır *ağ gün* bizə?
Necə şadlanasan ki, şadlıq olub möcüzə! [2, s.139].
İşıqlandıra bilsən, inan, könlünü bir gün,
*Ağ günü*, səadəti qaytarmaq yenə mümkün... [2, s.158].

- Ağ rəng adı "qar", "kül", "bəbək və göz" denotatlarının xarakterinə uyğun gəlir:

Bəli, elə ki, hava bir-iki ay soyuyar,
Qapqara buludlardan yağar ağappaq ilk qar [2, s.115].
Onun tərli yanağı şehi ağappaq nəsrin,
Ay camalı nur saçır göydə Sürəyya təkin [2, s.83].
Yazda tazə budaqdan tazə güllər fışqırar,
Odundansa ocaqda yalnız ağ küllər qalar [2, s.114].
İşığından islandı şamın ağ kirpikləri,
Qısqanclıqdan ağardı çırağın bəbəkləri [2, s.84].
Qarğanın əyni, başı qapqaradır, gözü ağ.
Gözün varsa görə bil, ağı qaradan qabaq [2, s.146].

- Şair əsərdə ağ rəngi dolayı şəkildə ifadə etmək üçün məcazdan da istifadə etmişdir:

Doğdu Günəş, Fələyin nəhənk çırağı yandı,
Gecənin qaranlığı *dan rənginə boyandı* [2, s.72].

Nizaminin poeziyasında iki cür dünya var: zalımlar, divlər dünyası; nurlar, mələklər dünyası [3, s.153]. Dahi şair bu dünyaların daim davam edən mübarizəsinə üsyan edir və bu dünyaların xüsusiyyətlərini ağ və qara rənglərin semantik strukturunun təhlilində daha aydın şəkildə əks etdirir:

Bu *ağ, qara dünyanın* soltanları - Ayla Gün,
Peykin olub yolunda, xəbərçidir səninçün [2, s.43].
Günə, Aya don biçdi öz əlilə Yaradan,
Birinə ağ ipəkdən, o birinə qaradan [2, s.25].

Günəşin donu - ağ ipəkdən, gündüzdən ibarətdir. Ayın donu isə qaranlıq gecədir. Tanrı gecəni, gündüzü belə bir hüsn ilə yaratmışdır. Şair cəmiyyəti gecənin, qaranlığın qatı zülməti içərisindən işığa, həqiqətə, xeyrə çıxmağa səsləyir.

Rəng adları həm öz həqiqi, həm də məcazi mənalarında frazeoloji birləşmələrin tərkibində işlənə bilir. Lakin heç də rəng adlarının hamısı frazeoloji birləşmələrdə eyni səviyyədə işlənə bilmir. Rəng adları sabit birləşmələrdə tamamilə başqa məna da ala bilir. Əsərdə ağ rəng adı ilə bağlı bəzi frazeoloji birləşmələrin işləndiyini də müşahidə edirik:

Bildi: şuma düşməsə çatar əhdinə haçaq?
Dəyirmana girməsə, *üzü ağ olmayacaq* [2, s.89].
Ey gecə rəngli şəbdiz, *səhər ağ nalın olsun*,
Dön səhərə, ah-nalən göylə vüsalın olsun [2, s.120].
Durma Ərəb çölündə, Əcəm yurduna atlan,
Gecə o qara, gündüz *ağ köhlənlə qanadlan*! [2, s.44].

Verilmiş nümunələrdəki frazeoloji birləşmələrin semantikasına nəzər yetirək: üzü ağ olmayacaq – etimadını doğrultmayacaq, səhər ağ nalın olsun – səhərin uğurlu olsun, ağ köhlənlə qanadlan – gündüz işıqda, aydınlıqda yola düşmək mənasını ifadə etmişdir.

### "Sirlər xəzinəsi" əsərində qara rəngin semantik strukturu

Əsərdə qara rəng adının semantik strukturuna nəzər saldıqda, əsasən, həm mənfi, həm də müsbət mənalarda işləndiyini müşahidə edirik:

- Qara rəng bütün rənglərin ən tündüdür və əsərdə birinci "his, kömür rəngi" olması ilə xarakterizə edilib:

*Qara mədəndən* çıxan min-min işıqlı inci,
Məgər ola bilərmi bircə dişin ödənci? [2, s.40].
Günahı ucbatından qaçdı xeyli uzağa,
O, üz qaralığını tökdü qara torpağa [2, s.90].

- Qara rəng ağ rəngin əksinə olaraq "tutqun, tünd" mənalarını ifadə edir:

Heyrətlənmə, qaranın gülüş görsən üzündə,

Qara bulud saxlamır ildırımı özündə [2, s.183].

Dedi: - Yaxşı deyilmi örtürəmsə, ay bala,
Üzümün qarasını dişimin ağlığıyla? [2, s.183].

- Qara rəng adı əsərdə həm də "kədərli, pis, qəmgin" semlərinin ifadəsinə xidmət edərək aşağıdakı şəkildə əksini tapmışdır:

Qızmış, *qara niyyətli* şah yumruğunu sıxdı,
Arxasında dayanmış qocaya kinlə baxdı [2, s.169].

*Qara taleyim* məni, gör, kimlərə tay etdi,
Qələndərlik öyrətdi, imanımı zay etdi [2, s.140].

Məsiha nəfəsindən şəfa saçdı Yer Aya,
*Qara sevda* oduna su səpdi duya-duya [2, s.65].

- Qara rəng çaları əsərdə semantik baxımdan *gənclik, gözəllik, şuxluq* mənalarının ifadəsinə də xidmət etmişdir:

Başın ən gözəl tacı həmişə *qara saçdır,*
Qızılın əyarını verən də qara daşdır [2, s.115].

Gümüş tək ağ üzündə ətir saçır *qara tel,*
Müşkün özü ətrini ondan alır elə bil [2, s.83].

Əldən getdi iradəm, gözümdə gün qaraldı [2, s.63].

- Qara sözü əsərdə *qaranlıq, zülmət, gecə* mənalarında da işlədilib:

Yalqızlıq pərdəsinin qara rəngidir gecə,
O zülmətdə bircə nur idrak nurudu, məncə [2, s.87].

Düyün açılmayınca qaralırdı hələ də,
Gecənin zülmət saçı gündüzlərin əlində [2, s.25].

Xəstələnmiş qəmərdən boşaltdı bir ləyən qan,
Qara mürəkkəb kimi qaraldı bütün cahan [2, s.65].

Uyğudan qapanarkən gecənin qara gözü,
Yandı sübhün çırağı, işıqlandı Yer üzü [2, s.72].

- Qara rəng adı əsərdə həm də *"matəm, yas"* mənasında işlənmişdir:

İkinci xoruz banı imdadına çatmasa,
Birinci rüsvay olar, *batar qara bir yasa* [2, s.67].

- Əsərdə qara rəng adı bəzi frazeoloji birləşmələrin tərkibində də işlənib:

Mübarək çöhrəsini görüncə *gün qaraldı,*
Gecə rəqsə başlayıb, özgə bir ahəng aldı [2, s.34].

Aylı gecələrindən sən ey xəcil qaldığım,
Gündüzünün yanında *üzü qara olduğum*! [2, s.87].

Riyazət hünərini bir tamaşa zənn elər,
Ərənlər barəsində *qara fikrə düşənlər* [2, s.201].

Qara rəng semantik blokunda məcazlaşma, rəng simvolikası xüsusilə geniş yayılmışdır.

**"Sirlər xəzinəsi" əsərində boz rəngin semantik strukturu**

Azərbaycan dilində boz rəng adının semantik strukturunun geniş olmasına baxmayaraq dahi Nizami bu rəng tonlarını "Sirlər xəzinəsi" əsərində məhdud sayda işlətmişdir. Qeyd edək ki, boz rəng nəinki rəng, hətta müstəqil şəkildə və qoşulduğu sözlərlə və qəbul etdiyi sözdüzəldici şəkilçilərlə birlikdə yeni leksem yaratma xüsusiyyətinə malikdir.

- Lakin əsərdə yalnız qara və ağ rənglərin qarışığından əmələ gələn rəngin "boz, ala" rəng mənalarında işləndiyini görürük:

Əsdi Süheyl rüzgarı Yəmən yellərilə bir,
*Bomboz*, yanıq çöllərə gətirdilər rəng, ətir [2, s.76].

Eşidəndə ki, gəlir, dönür meracdan geri,
Yedəklədi *Boz atı* sənət süvariləri [2, s.34].

*Ala gözləri* bizi Günəşdən çox yandırar [2, s.78].

Leş yeyən quzğun kimi qan içməkdənsə, inan
Yaxşıdır qandan uzaq *ala qarğa* olasan [2, s.182].

- Əsərdə şair ənbər rəngini də unutmamışdır. Bu rəng boz *rəngin* tünd və açıq

çalarlarında olur. Azərbaycanda ənbər vaxtilə geniş yayılmış və o, güllərdən əldə edilmişdir. Ənbəri vaxtilə şahların, xəlifələrin sarayında küplərdə saxlayardılar, ondan məlhəm və yaxud ətir kimi istifadə edərdilər.

Gecə dönüb onunçün müşk, *ənbər* satana [2, s.26].

Canımıza dərmandır saçdığın ətir, *ənbər* [2, s.39].

Necə quçaqlaşıblar, görün, xeyri gülləri,

*Gül rəngli ənbər* üçün yelpik olub hər biri [2, s.73].

Əsərdə yalnız bir yerdə "çil" rəngi işlənmişdir ki, bu rəng də boz və qəhvəyi rənglərin sintezindən yaranıb. Çil kəkliyin təsvirinə baxsaq görərik ki, bu quşun başı qonur, boynu boz, beli və qurşağı qəhvəyi-bozdur, gözlərinin ətrafı pas rəngli tüklə örtülüdür. Qarın hissəsində şabalıdı rəngdədir. Bədəninin yanlarında açıq-qəhvəyi rəngli köndələn yerləşən zolaqlar vardır. Dimdiyi boz, ayaqları isə yaşıldır.

Vurulmuş qırqovulun almaq üçün qanını,

Çil kəklik cırmaqlayır sərvin ağ dabanını [2, s.76].

Əsərdə digər misrada şair "qurşun rəngi" deyilən bir rəngdən bəhs edir. Bu rəngi ifadə edən şair açıq kül *rəngini nəzərdə tumuşdur. Kül rəngi də boz rəngin çalarlarından biridir və bəzi mənbələrdə kül-boz deyə qeyd edilmişdir.*

*Qurşun rəngli* qalanı - bu göyləri zəbt elə,

Bu əbləh xüttəlanı yəhərlə, min, dön yelə [2, s.196].

**"Sirlər xəzinəsi" əsərində qırmızı rəngin semantik strukturu**

Əsərdə qırmızı rəng mikrobloku çox geniş şəkildə əksini tapmışdır. Bu rəng "Sirlər xəzinəsi"ndə *tünd qırmızı, al, ləl, qızıl, qırmızı, qızılgül, yaqut, atəş* mənalarında ifadə edilmişdir:

- Əsərdə qırmızı rəng insan gözəlliyinin tərənnümüdə, geyimində istifadə edilən rəngin adını bildirir:

Qarşımızda *qırmızı, qızıl* donlu süvari,

Zəfər rəmzi bir gəncin *ləl rəngində* paltarı [2, s.70].

Şairin *ləl dodağı* o zaman ki, açılar,

Yeddi göyün, Günəşin yaxasını parçalar [2, s.61].

- Qırmızı rəng adı narıncı rəngə yaxın olan məna bildirir:

Turuncun yarpağından yaşıl görünən səma,

Əlində *qızıl narınc* birdən çıxdı qarşıma [2, s.75].

- Qırmızı rəng adı bəzən "qanlı" mənası ilə də birlikdə işlənə bilir:

Ləlin ciyərlərinə nəyi verdi, bax, tanı:

Torpağın ürəyindən *qızıl-qırmızı* qanı! [2, s.25].

Yeddi qatlı göydədir dədənin *qızıl qanı,*

Yeddi loxma çörəkçin tökmə abırhəyanı [2, s.134].

- Qırmızı rəng adı əsərdə "gözəllik bəxş edən", "parlaqlıq gətirən", "fərəh doğuran" mənasında da işlənib:

Gah qan rənginə düşdüm *al qırmızı* mey kimi [2, s.72].

Fələklər bayrağını *qızıl şəfəqlə* süslər [2, s.75].

Gələndə rəngin neçin *şərab kimi qızardı*? [2, s.139].

Səccadənin ucunu təmiz suya salarlar,

*Al qırmızı şəraba* bal dadı verər onlar [2, s.124].

- Əsərdə qırmızı rəng adı çiçək adı kimi və bəzən hətta çiçək adı ilə birlikdə istifadə edilib:

Canını təslim etdi canıma *al lalələr* [2, s.72].

*Qızılgüldür,* yaşıldır, fəqət, qənd qamışından,

Noğulmu, nabatmıdır? Yox, şərbət sanar dadan [2, s.78].

Sən gəldin, göy ətəyi doldu daş-qaşla, zərlə,

Göy çevrəsi süsləndi altunla, *al* rənglərlə [2, s.42].

İndi mən *al-qırmızı* bir qönçəyə bənzərəm [2, s.65].

- Əsərdə qiymətli mineral daş olan yaqutun və xoşqoxulu qırmızı-qonur maddə olan müşkün ecazkar təsviri də insanı heyran edir.

Birləşdirib, yoğurdu, qaynatdı suyla odu,

Necə də xəlq elədi dürrü, bir də *yaqutu* [2, s.25].

Eşsiz, nadir bir *yaqut* nur saçır kəmərində [2, s.51].

Bu *mişk rəngli* sədəf- göy bizə düşmən imiş, ah! [2, s.144].

Dərisinin sərtliyi *mişk* vermiş ceyrana,

Eşq məktubu yazırlar bu dəridə canana [2, s.120].

Sonuncu misraların izahına nəzər saldıqda su - yağış suyu, od - günəş şüalarına işarə edir. Şair demək istəyir ki, dənizlər dibindəki ağappaq dürr və Yerin təkindəki qırmızı yaqut əslində təbiətin nadir möcüzəsi kimi su ilə Günəş şüalarının torpaqda, daşdakı vəhdətindən yaranmışdır.

**"Sirlər xəzinəsi" əsərində göy rəngin semantik strukturu**

Azərbaycan dilində göy rəng adının semantik strukturu çox genişdir. Əsərə nəzər saldıqda isə aşağıdakı mənaları müşahidə edirik.

- Göy rəng adı səma, göy üzü mənasını ifadə edir:

Bir qəlb hekayəsi de, bu *göy* qübbə içində,

Xoş bir nəğmədi dünya təmiz, *mavi* biçimdə [2, s.66].

*Göy* çevrəsi süsləndi altunla, al rənglərlə [2, s.42].

*Göy* gümbəz altındadır bu dustaqlar daxması,

Ey kaş, boğa zülməti göyün işıq dalğası [2, s.116].

Bu *göy* rəngli pərdənin arxasında min əsrar [2, s.118].

- Göy rəng əksər hallarda mavi rənglə eyni mənalı, eyni funksiyalı olur. Göylə mavini bir-birindən fərqləndirən başlıca əlamət mavinin açıq, göyün isə tünd olmasıdır. Amma bu o demək deyil ki, göylə mavi həmişə bir-birinin eyni ola bilir. Şair əsərdə mavi rəng adını da geniş şəkildə tərənnüm etmişdir.

Bu *mavi* dairə ki, kainatı çevrələr,

Burda bir nöqtə kimi düyünləndim bir səhər [2, s.49].

Görün, *mavi* pəncərə nə söylər ucalıqdan [2, s.51].

- Əsasən yaşıl və mavi rənglərin qarışımından əldə edilən firuzə r*əngi* açıq mavidən, göy, yaşıl və tünd yaşıl çalarlara qədər olur. Nizami "Sirlər xəzinəsi" əsərində göy rəng adı mənasında firuzə rəng çalarını istifadə etmişdir:

Bu *firuzə* qübbə ki, fovqünə çatmır xəyal,

Sənin üçün genişdir, idrak üçün darısqal [2, s.179].

*Firuzədən* yapılmış bu əngin *mavilikdə,*

Cənnət qəsrindən gələn turuncdu tazəlikdə [2, s.32].

Ədəbi dilin inkişaf tarixinə nəzər saldıqda görürük ki, göy rəng adı semantik baxımdan "yaşıl və firuzə" mənasında işlənərək bitkilər aləmini əks etdirən leksem kimi çıxış edib.

Bu *firuzə* bağcanın sən qızılgül kolusan [2, s.50].

Göylərə qaldırmaz əli göy çinar [2, s.18].

Turuncun yarpağından *yaşıl* görünən *səma,*

Əlində qızıl narınc birdən çıxdı qarşıma [2, s.75].

- Dahi Nizami "Nil rəngi" bənzətməsi ilə göy rəngin heyrətamiz təsvirini ifadə edib:

Nilçi oldu, gözündə *nil rəngində* asiman,

Hindistanda çəmənlər bitdi göz yaşlarından [2, s.90].

Fələk vuran ləkəni ovcundan silənədək,

Qarşısında göyərdi *nil rəngində* ot, çiçək [2, s.90].

**"Sirlər xəzinəsi" əsərində yaşıl rəng adının semantik strukturu**

Yaşıl rəng dedikdə, gözümüzün önündə ana təbiət canlanır. Yaşıl rəng həyat, qida, bahar, yenidən doğuş, təravət, ekologiya, sağlamlıq, canlılıq, tarazlıq, harmoniya, gənclik, xoşbəxtlik, məhsuldarlıq və bir çox digər mənaları özündə əks etdirir. Əsərdə yaşıl rəng adının semantikası aşağıdakı şəkildə əksini tapıb:

- Yaşıl rəng adı ot, yarpaq, yaşıllıq, bitkilərlə zəngin olar yer mənalarını ehtiva edir:

*Yaşıl otla* - Sincabla, qəribədir, cüt gəzər [2, s.74].

Güldüm *yaşıl çöldəki* lalə kimi, zər kimi,

Yüz yerdən parçalandı paltarım güllər kimi [2, s.72].

Şəkər gülüşü güldən xəcalət çəkən tutu,

Məst olub, *yaşıllığı* qanadlarıyla tutub [2, s.73].

Mən - su arxı, o - çəmən, mən - *yaşıllıq*,o - Günəş [2, s.84].

Çöldə ot otladığın, yatdığın yetər artıq,

Bir az da fələklərin *yaşıl bağçasına* çıx [2, s.141].

- Yaşıl rəng adının əsərdə "təzə", "tər" mənası da əksini tapıb:

Yaşılbaş dan ulduzu doğar hər gün dan üzü,

"Daim yaşıl qalasan, ey bağ!" - Söylər bu sözü [2, s.75].

Ağ yasəmən çatarmı yamyaşıl, tər söyüdə? [2, s.172].

Bu misrada yasəmən qocalığın, söyüd isə gəncliyin rəmzi kimi verilib.

- Əsərdə yaz rəngi dedikdə, yaşıl rəngə və ilin yaz fəslinə işarə edilib:

O cənnət bağçasının gülü, laləsi yandı,

Yer üzü başdan-başa *yaz rənginə* boyandı [2, s.36].

Yaşıl bahar güləşib, onu yıxmaqmı istər? [2, s.75].

- Əsərdə yalnız bir dəfə yaşıl rəng "yas", "matəm" rəngi deyə təsvir edilib:

Qəm küpünün içinə bu torpaq necə doldu?

Ətrafının rəngi də *matəm yaşılı* oldu [2, s.143].

Qeyd edək ki, yaşıl rəng Quranda zikr olunan ən birinci *rəngdir*. Bütün türk xalqları arasında yaşıl rəng təbiətin - çəmənlik, meşə, ağac və s. rəngi kimi qəbul edilir. Təbiəti əks etdirən ağac, "həyat ağacı" kimi motivlər də yaşıl rənglə əlaqədardır. Bu baxımdan "matəm yaşılı" ifadəsi məcazi mənada işlənmişdir.

Əsərdə qeyd edilir ki, islam əsatirinə görə Məhəmməd peyğəmbərin möcüzələrindən biri "şəqqül qəmər" - onun barmağının işarəsilə ayın tən ortadan parçalanmasıdır. Guya həmin gündən etibarən parçalanmış, incəlmiş Ay onun hakimiyyət möhürünə çevrilmişdir. Nizami heç bir zəbərcəd qaşlı üzüyün gözəllikdə, şərafətdə bu möhürə (Aya) tay olmadığını bildirir. Zəbərcəd sarıya çalan yaşıl daşdır. Qədim astronomların fikrincə, əslində yaşıl rəngdə olan Ay da, günəş şüalarını əks etdirdiyi üçün sarımtıl görünür.

Möhür kimi verildi Məhəmmədə yeni Ay,

Hansı zəbərcəd qaşlı üzük olar ona tay? [2, s.32].

**"Sirlər xəzinəsi" əsərində sarı rəng adının leksik-semantik sahəsi**

- Sarı rəng adı günəş spektrində narıncı və yaşıl arasında olan rəngi əks etdirir:

Bağın darvazasında çut bayraq: *qızıl, sarı*,

Qapılar pəncərətək açılmış göyə sarı [2, s.74].

Burda şəkər qamışı təbəssüm saçdı yenə,

*Sarı güllər* boyandı qırmızı ləl rənginə [2, s.75].

- Sarı rəng adı meyvənin, yaxud hər hansı taxıl bitkisinin yetişmiş, dəymiş olduğunu və ya yaşıl bitkinin saralıb-solduğunu bildirir:

Buğda yeyincə, üzü *buğda rəngini* aldı,

Bərk utandı, ay kimi, *saman kimi sar-aldı* [2, s.89].

Quru torpaqda bitən *sarı buğda*, o gövhər,

Ağılsızlıq, sıxıntı rəmzi deyilmi məgər? [2, s.90].

- Sarı rəng adı insan dərisinin rəngini, onun hansı irqə mənsub olduğunu, hansı xəstəlik səbəbindən və yaxud dərddən saraldığını ifadə edə bilər. Əsərdə verilmiş mənalardan yalnız *insanın üz rəngi* mənasına rast gəlirik.

Sönən lalə yanaqlar onunkundan da sarı [2, s.189].

- Əsərdə sarı, altun (*rəngi* açıq-sarı) və qızıl rəngləri günəşin, ulduzların və ayın vəsfində geniş istifadə edilmiş rənglərdir.

Bu *sarışın*, yuvarlaq Günəş zərnixə oxşar [2, s.97].

Çərx gümüşlə bəzəmiş ulduzların dəstini,

Açmış *altun* Günəşin qızıl səhifəsini [2, s.85].

Titrəyirdi ürəyi neçə illərdən bəri,

Bu qızılın *sapsarı* şöləsindən ötəri [2, s.161].

Əmr elə, qoy dəyişsin əyyamın hər ayəti,

Qoy *saralsın* qarşında ulduzların surəti [2, s.28].

Dahi şair Nizami Gəncəvi "Sirlər xəzinəsi" əsərində az işlənən bəzi rənglərin də adını çəkmişdir. Məsələn, "fındıq rəngli" torpaq ifadəsi ilə şair qəhvəyi rəngə işarə etmişdir:

Hələ ki, basmayıblar fındıq boyda məzara,

*Fındıq rəngli* torpaqdan vaz keç, qalx səmalara! [2, s.133].

Şair əsərdə reyhan rənginin - "bənövşəyi" rəngin tərənnümünü xüsusi boyalarla təsvir etmiş və bu məqsədlə reyhan rəngini *yanağın atəşi* (qırmızısı) və *yanağın laləsi* ifadələri ilə qarşılaşdırmışdır.

Yanağının atəşi bir dəstə *reyhan* oldu,

Nərgizinin üstündə xəncər də xəndan oldu [2, s.183].

Qocaların kədəri yaraşarmı cavana?

Yanağının laləsi neçin dönüb *reyhana?* [2, s.189].

**Nəticə**

Tədqiqat zamanı Nizami yaradıcılığında müxtəlif rəng çalarlarını ifadə etmək üçün rəng bildirən sözlərin yanaşı işlənməsindən qüvvətləndirici və zəiflədici vasitə kimi istifadə olunduğunu görürük. Rəng adlarının semantik strukturu bir-biri ilə sıx məna münasibətində olan həqiqi və məcazi mənalardan ibarətdir. Əksər hallarda məcazi məna həqiqi (nominativ) mənaya istinad edir və burada rəng obrazı hiss olunur. Belə məcazi mənalar həqiqi mənanın ardıcıl inkişafının nəticəsi ola bilir. Bu inkişaf zamanı mücərrədlik dərəcəsi dəyişkən olur.

Türk dünyasının ensiklopedik alimi olan Nizami Gəncəvi bütün elmlərin sirlərindən xəbərdar olmuş və yaratdığı hikmət xəzinəsini özündən sonrakı nəsillərə yadigar qoymuşdur. Şair "Sirlər xəzinəsi" əsərində - səkkizinci söhbətdə "Yaradılışın hüsnünə dair" adlı başlıqda bütün rənglərə münasibətini nəticə olaraq belə ifadə etmişdir:

Bəzən inanmaq olmur rənglərin ahənginə,

Yaxşılıq, pislik düşür bir-birinin rənginə [2, s.135].

Məhz bu səbəbdəndir ki, insan rəngləri reallıqda olduğundan daha çox özünün *görmək istədiyi* kimi *təsvir edir.*

## ƏDƏBİYYAT SİYAHISI
### *(References)*

1. Azərbaycan ədəbiyyatı tarixi. 2 cilddə, I cild. Bakı, 1960, 580 s.
2. Nizami Gəncəvi. Sirlər xəzinəsi. "Lider nəşriyyat", Bakı, 2004, 264 s.
3. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər. Bakı: Ozan, 2008, 695 s.
4. Исазаде Х.О. Семантическое поле цветообозначений. Автореф. дис. канд. Филол. наук. Баку, 2001, 30 с.